# Fikrət Əmirov haqqında xatirələrim



Rəna Qədimova
*bəstəkar*

Görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun əsərlərinin hər birində janr və həcmindən asılı olmayaraq milli ruh yaşayır, qədim tariximiz canlanır. Onun yaradıcılıq irsi Azərbaycan musiqi incəsənətinin incilərindəndir. Bu il 100 illiyi qeyd olunan bəstəkarın yazıb-yaratdığı əsərlərlə neçə musiqiçi nəsli yetişmiş və yetişməkdədir. Görkəmli bəstəkarımız Fikrət Əmirov haqqında düşüncə və xatirələrimi bölüşməkdən böyük bir məmnunluq hissi duyuram, bu fürsəti mənə verdiyiniz üçün sizə təşəkkürümü bildirirəm. F.Əmirovun mənim həyatımda həlledici, olduqca əhəmiyyətli rolundan çox az insanın məlumatı olar. Mən inanıram ki, həyatda qarşılaşdığımız hər bir insana təsadüfən rast gəlmirik. Təsadüf bildiyimiz hər bir görüş, hadisə əslində bizim üçün bir işarədir, nemətdir. İlk baxışdan adi görünən hadisə, sonrakı həyatımıza böyük təsir göstərir. F.Əmirovla görüş mənim həyatımda da köklü dönüş nöqtəsi oldu. Mən Bülbül adına orta ixtisas musiqi məktəbini pianoçu kimi bitirmişdim. Sənədlərimi Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano fakültəsinə verdim. Bütün imtahanlardan keçmişdim, lakin qəbul olmaq üçün kifayət qədər bal toplaya bilməmişdim. Atam buna görə çok fikir edirdi. Mən isə sevinirdim ki, fizika, kimya kimi texniki fənlər daha vaxtımı almayacaq və musiqiylə daha çox məşğul olacam. Bülbül adına məktəb-





də oxuyarkən N.Əliverdibəyovdan bəstəkarlıq dərsləri alırdım və fortepiano əsərləri yazmaq üçün artıq ilkin təcrübəm var idi. Bunu bilən anam özünü itirmədən məni F.Əmirovla görüşdürəcəyinə söz verdi. Bu görüşü xəyalımda canlandırarkən nədənsə inanırdım ki, F.Əmirovun qərarı bəstəkarlığın xeyrinə olacaq. Anamın bu sözlərindən həm ruhlandım, həm də həyəcan hissi keçirirdim. Çünki görkəmli bəstəkar mənim prelüdlərimi bəyənməyə də bilərdi. Odur ki, bu görüşü sanki imtahan kimi qəbul edirdim. Onu da qeyd edim ki, mən indiyədək anamın F.Əmirovun telefonunu necə tapdığını və bizi qəbul etməsi üçün ona nə dediyini heç vaxt bilmədim. Bircə onu xatırlayıram ki, anam günlərin bir günü gəlib dedi ki, hazırlaş, iki gündən sonra F.Əmirov bizi öz evində qəbul edəcək. Mən də ən çox bəyəndiyim iki prelüdü səliqə ilə köçürüb hazırladım və gözlədiyimiz o gün gəlib çatdı. O, bizi gülərüzlə qarşılayıb məni royalın arxasına dəvət etdi. Həyəcanımı gizlədib hazırladığım iki prelüdü çaldım. Onun nə deyəcəyini gözləyirdim. Bəstəkarın ilk sözləri məni bir qədər sakitləşdirdi - " Prelüdlərini yaxşı ifa edirsən, fikrini çatdıra bilirsən". Sonra bir saat yarım ərzində o, prelüdlərimi xanə-xanə təhlil etdi, öz fikirlərini izah etdi, mənə musiqi obrazlarının məntiqi inkişafına daha diqqətlə yanaşmağı tövsiyə etdi. Dahi bəstəkarın bu qiymətli qeydi sonralar mənim iş prinsipimə çevrildi. F.Əmirovun yekun sözlərini olduğu kimi qeyd edirəm - " Qızım, incimə, yaxşı ki, fortepiano fakultəsinə qəbul olmamısan. Get bir il ərzində bəstəkarlığa hazırlaş". Sevincim hüdudsuz olsa da hisslərimi cilovlayıb təşəkkürümü bildirərək anamla oranı tərk etdik. Beləliklə, mən yeni məna ilə dolu bir həyata qədəm qoydum. Evimizə çatan kimi bu görüşün təəssüratlarını atamla bölüşdüm.

Mən sizin fikrinizi F.Əmirovun insan böyüklüyünə yönəltmək istərdim. Bir anlıq təsəvvür edin ki, SSRİ xalq artisti, dünya şöhrətli bir bəstəkara tanımadığı bir qadın zəng edir və qızının cızma-qara əsərlərini dinləməsini xahiş edir. Çox nadir və xoşbəxt bir təsadüf oldu ki, bu da mənim payıma düşdü. F.Əmirovun bu nəcibliyi mənim üçün əvəzsiz, son dərəcə qiymətlidir. Buna görə mən ömrümün sonunadək F.Əmirova borcluyam. Deyərdim ki, valideynlərimə nə qədər borcluyamsa, ona da o qədər borcluyam. Mən çox xoşbəxtəm ki, həyatımda belə bir hadisə baş verdi və bu böyük hadisənin adı Fikrət Əmirovdur! İndiyədək hər bir yeni əsərə başladıqda F.Əmirovun saf siması gözümün önündə canlanır. O olmasa idi mənim həyatımda nə bəstəkarlıq, nə bu fakultədə oxuyarkən qazandığım müəllimlərim, nə də maraqlı həyatım olardı.